


# YAP Səbail rayon təşkilatı seçicilərlə görüşləri davam etdirir





11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin Səbail rayonu üzrə seçki qərargahı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Növbəti görüş Badamdar qəsəbəsində seçicilərlə keçirilib.





Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sistemli siyasi-iqtisadi islahatlar nəticəsində əldə olunan tarixi nailiyyətlər və möhtəşəm uğurlar haqqında danışıb. Millət vəkili bütün Azərbaycan cəmiyyəti kimi, Səbail rayonu seçicilərinin də ümumxalq məhəbbəti qazanmış cənab İlham Əliyevi dəstəklədiyini deyib.

**"Biz daha qüdrətli Azərbaycan və etibarlı gələcəyimiz naminə cənab İlham Əliyevin ətrafında sıx birləşməli və partiyamızın namizədini 11 aprel günü yekdilliklə dəstəkləməliyik"**, - deyə Ş.Hacıyev vurğulayıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli qeyd edib ki, son 15 ildə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf parametrlərinə görə dünyada analoqu olmayan uğurlara imza atıb: **"Ölkədə cəmiyyət həyatının bütün sahələri yenilənib və müasirləşib, əhalinin rifah halı müqayisəolunmaz dərəcədə yaxşılaşıb, sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib, respublikanın beynəlxalq nüfuzu artıb".**

**"Təbliğat-təşviqat kampaniyası zamanı respublikanın hər yerində seçicilər, cəmiyyətin bütün təbəqələrinin nümayəndələri dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevə böyük rəğbətlərini ifadə edirlər və seçki günü Onun namizədliyini dəstəkləyəcəklərini vurğulayırlar"**, - deyə H.Rəcəbli əlavə edib.

Görüşdə çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu Azərbaycanın son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolu keçdiyini diqqətə çatdırıb. O bildirib ki, bu müddət ərzində ölkəmizin beynəlxalq mövqeyi möhkəmlənib, ictimai-siyasi sabitliyin qorunması, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilib: **"Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlərin əldə edilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olunması və digər mühüm uğurlar məhz Prezident İlham Əliyevin səmərəli və məqsədyönlü fəaliyyətinin nəticəsidir. Bu kimi çoxsaylı uğurlar, əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək və xalq cənab İlham Əliyevi yenidən Prezident seçəcək. Çünki Azərbaycan xalqının mütləq əksəriyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir".**

Çıxış edən təbliğat qrupunun üzvləri - Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov və YAP Səbail rayon təşkilatının sədr müavini Əhliman Qarayev, həmçinin gənc fəallar Məhərrəm Məhərrəmli və Bəyim Nəbiyeva cənab İlham Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının yüksəldilməsi istiqamətindəki misilsiz xidmətlərindən danışıb və bildiriblər ki, xalqımız aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevi dəstəkləyəcək.

# Nərimanov rayonunda seçicilərlə növbəti görüş keçirilib





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatında seçicilərlə növbəti görüş keçirilib. Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin son illərdə qazandığı nailiyyətlərdən bəhs edib. T.Tağıyev bildirib ki, müasir dövlətimiz məhz bu siyasət nəticəsində inkişaf edir. O, Nərimanov rayon seçicilərini Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməyə çağırıb.





YAP Nərimanov rayon təşkilatının Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova çıxış edərək bildirib ki, seçki prosesində qadınlar da aktiv iştirak edirlər. Azərbaycan qadını özünü heç vaxt ölkəmizdəki inkişaf proseslərindən kənarda hiss etməyib. Onun sözlərinə görə, qadınların hüquqlarının qorunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas prioritetlərindən biridir. M.İbrahimova qeyd edib ki, qadınlar prezident seçkilərində yaxından iştirak edərək xalqın namizədi olan cənab İlham Əliyevə səs verəcəklər.

Çıxış edən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev vətəndaşların arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir: **"Vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür, pensiyalar artırılır, yeni iş yerləri yaradılır. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycan mühüm üstünlüklər əldə edib. Bütün bunlar Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Bu uğurların davamı naminə hər bir seçici 11 apreldə keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevə səs verməlidir".**

Tədbirdə digər çıxış edənlər də bildiriblər ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycanı regionun lider dövlətinə çevirib. Bu gün Azərbaycan İlham Əliyevin yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində dünyanın söz və nüfuz sahibi olan, hesablaşdığı dövlətlərdən biridir. Azərbaycan bu gün həm də dünyanın milli və dini tolerantlıq mərkəzidir. Yəni Azərbaycanımızın uğurları, nailiyyətləri, qələbələri, zəfərləri gündən-günə artmaqda və bunların davamı gəlməkdədir. Qeyd edilib ki, ölkə vətəndaşları, o cümlədən Nərimanov rayonunun seçiciləri bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək ən layiqli namizəd olan cənab İlham Əliyevə səs verəcəklər.

# YAP Şuşa rayon təşkilatı "Qızılqum" sanatoriyasında seçicilərlə növbəti görüş keçirib





Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının (YAP) namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş Pirşağı qəsəbəsində - "Qızılqum" sanatoriyasında və ətraf pansionatlarda məskunlaşmış bir qrup şuşalı seçicilərlə keçirilib.




Görüşdə YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev çıxış edərək ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət və qazanılan uğurlardan danışıb. Natiq seçiciləri cənab İlham Əliyevə səs verməyə çağırıb.

Sonra çıxış edən Milli Məclisin deputatı Elman Məmmədov cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən bu vaxtadək həyata keçirilmiş işlər və qazanılmış uğurlu nailiyyətlər barədə öz fikirlərini tədbir iştirakçılarına çatdıraraq, növbəti 7 ildə də Azərbaycanın daha möhtəşəm uğurlar qazanacağını bildirib.

Daha sonra çıxış edən rayon Ağsaqqallar Şurasının üzvü Ramiq Məhərrəmov, Gülmira Ağayeva, Tamella Fərhadova, Turan Əhmədova və digər seçicilər də Azərbaycanın müstəqilliyinin, sabitliyinin, inkişafının təminatı üçün seçki günü yüksək fəallıq nümayiş etdirərək Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

# Pirallahıda "İlhamla irəli" devizi altında seçicilərlə növbəti görüş keçirilib







Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyanın namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. YAP rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib. Görüşdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov, Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvü, "İki Sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə, Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev və YAP fəalları iştirak ediblər.



Görüşü YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov açaraq Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, praqmatik daxili və xarici siyasət nəticəsində ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. Hikmət Şikarov əlavə edib ki, Pirallahı rayonundan olan seçicilər aprelin 11-də keçiriləcək prezident seçkilərində birmənalı şəkildə cənab İlham Əliyevə səs verəcəklər: **"Azad və demokratik prezident seçkiləri nəticəsində xalqımız növbəti dəfə cənab İlham Əliyevin parlaq qələbəsini bayram edəcək. Çünki cənab İlham Əliyev xalqımızın alternativsiz lideridir".**

Tədbirdə çıxış edən C.Cəfərov, V.Rəhimzadə, B.Allahverdiyev Azərbaycanda bütün sahələrdə sürətli inkişaf getdiyini diqqətə çatdırıblar. Qeyd edilib ki, Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycan xalqının xoşbəxt gələcəyinə həsr edib.

Görüşdə həmçinin Pirallahı Rayon Ağsaqqallar Şurasının sədri Fazil Məmmədov da çıxış edərək rayon əhalisinin yaşlı təbəqəsinin güzəranından, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan söz açaraq ağsaqqallar adından cənab İlham Əliyevi dəstəklədiklərini bildirib. YAP Pirallahı rayon təşkilatının məsul əməkdaşı Günel Məmmədova isə bildirib ki, Pirallahı seçiciləri aprelin 11-də YAP-ın namizədinə səs verəcəklər.